# ŞUŞA RAYONUNUN BƏZİ DƏRMAN BİTKİLƏRİNİN MƏRKƏZİ NƏBATAT BAĞINDA İNTRODUKSİYASI

**Yusif Zeynalov[1], Aynur Ərəbzadə[1], Yusif Abiyev[2], Leyla Mustafayeva[1]**

[1]*Mərkəzi Nəbatat Bağı*

[2] *Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Botanika İnstitutu, aynurarabzade@gmail.com*

Şuşa rayonu relyefinin və iqliminin müxtəlifliyi bitki örtüyünün zənginliyinə səbəb olmuşdur. Uzunmüddətli işğal dövründə burada tədqiqatlar aparılmadığı üçün ərazinin bitki örtüyünün öyrənilməsi və bərpası aktual məsələdir.

Ədəbiyyat məlumatlarına əsasən, regionun təbii bitki örtüyündə *Arctium lappa, Artemisia absinthium, Artemsia vulgaris, Rumex crispus, Inula helenium, Taraxacum officinale, Dryopteris filix mas, Salvia officinalis, Papaver somniferum, Rhus coriaria, Malva sylvestris, Sambucus nigra, Sambucus ebulus, Crocus speciosus, Platanthera chlorantha, Melissa officinalis, Crataegus pentagyna, Rosa canina, Achillea millefolium, Eremurus spectabilis, Plantago major, Origanum vulgare, Carum carvi, Mentha longifolia, Mentha piperitae, Ornithogalum pyrenaicum, Matricaria chamomillae, Berberis vulgaris, Lamium album, Potentilla recta, Euphorbia iberica, Orchis purpurea, Fragaria vesca, Urtica dioica, Hypericum perforatum, Hippophae rhamnoides* və s. dərman bitkilərinə rast gəlinmişdir. Öyrənilən növlər antibakterial, antivirus, diuretik, büzüşdürücü, yarasağaldıcı xüsusiyyətlərə malik olub, ürək-damar, böyrək-sidik yolları, qaraciyər, diabet, dəri, mədə-bağırsaq və s. xəstəliklərin profilaktika və müalicəsində istifadə olunur.

Tədqiq olunan növlər Mərkəzi Nəbatat Bağının kolleksiya sahəsinə introduksiya olunaraq becərilmişdir. İntroduksiya olunmuş dərman bitkilərinin içərisində həmçinin nadir və nəsli kəsilməkdə olan bitkilər (*Rhus coriaria, Crocus speciosus, Platanthera chlorantha, Eremurus spectabilis, Orchis purpurea və s.*) də vardır.

Öyrənilən növlərin introduksiya olunmasında məqsəd nadir və nəsli kəsilməkdə olan növlərin çoxaldılması və reintroduksiya edilərək sayının bərpa edilməsidir. Dərman bitkiləri isə Şuşa rayonunda və Qarabağın digər ərazilərində çoxaldılaraq yeni dərman bitki kolleksyalarının salınması məqsədilə istifadə oluna bilər.